# Bir sıra seçki məntəqələrində saxta jurnalist vəsiqəsindən istifadə halları ilə bağlı müvafiq araşdırmalar aparılır

**Daxili İşlər Nazirliyi və Medianın İnkişafı Agentliyi (MEDİA) birgə açıqlama yayıb.**

AZƏRTAC açıqlamanı təqdim edir: "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər zamanı bir sıra seçki məntəqələrində saxta jurnalist vəsiqəsindən istifadə halları müəyyən edilib. Üzərində  Medianın İnkişafı Agentliyi tərəfindən verildiyi iddia olunan "Jurnalist vəsiqəsi" orijinal nüsxənin elementlərini kobud formada təkrarlayaraq qeyri-qanuni yolla hazırlanıb.

Xatırladırıq ki, jurnalist vəsiqəsinin verilməsi qaydası "Media haqqında" Azərbaycan Respublikası Qanunu və "Media Reyestrinin aparılması Qaydaları" ilə tənzimlənir, onun forması isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə təsdiqlənib.

Jurnalist vəsiqəsi müvafiq qanunvericiliyin tələblərinə cavab verən jurnalistlərə Medianın İnkişafı Agentliyi tərəfindən verilən, rəqəmlərin və (və ya) hərflərin kombinasiyasından ibarət unikal qeydiyyat nömrəsi olan rəsmi sənəddir. Vəsiqənin arxa hissəsində yerləşdirilmiş QR kodunu skan etməklə vəsiqə sahibini eyniləşdirmək, onun Media Reyestrinə daxil edilib-edilmədiyini, həmçinin vəsiqənin həqiqiliyini müəyyənləşdirmək mümkündür.

Bildiririk ki, jurnalist vəsiqəsinin hər hansı forma və üsulla saxtalaşdırılması, istifadəsi qanunvericiliklə müəyyənləşdirilmiş məsuliyyətə səbəb olur. Hazırda Daxili İşlər Nazirliyi tərəfindən müvafiq araşdırmalar aparılır, fakta hüquqi qiymət verilməsi təmin ediləcək".

Azərbaycan.- 2024.- 2 sentyabr (№ 189).- S.15.